# Qəbələ sosial-iqtisadi inkişafın yeni mərhələsinə doğru irəliləyir

## İlin 9 ayı və Qəbələnin uğurları





Oktyabr ayının 14-də Qəbələ Rayon İcra Hakimiyyətində 2016-cı ilin 9 ayında rayonun sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair iclas keçirilmişdir. İclasda rayon icra hakimiyyəti başçısının yanında şura üzvləri, şəhər, qəsəbə və kənd inzibati əraziləri üzrə nümayəndələr, bələdiyyə sədrləri, idarə, müəssisə və təşkilat rəhbərləri, iş adamları iştirak etmişlər.

İclası Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev açmış və «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası ilə əlaqədar həmin dövrdə Qəbələ rayonunda görülmüş işlər və qarşıda duran vəzifələr»ə dair geniş məruzə etmişdir **(məruzə 4, 5, 6, 7-ci səhifələrdə dərc olunur).**

Məruzə ətrafında rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov və təhsil şöbəsi metodiki kabinetinin müdiri Arifə Bayramova çıxış etmişlər.

Rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev qısa hazırlıqla əlaqədar rayonun xidmət təşkilatlarına, bütün idarə və müəssisə rəhbərlərinə müvafiq tapşırıqlar vermişdir.

İclasda müzakirə edilən məsələ ilə əlaqədar müvafiq qərar qəbul olunmuşdur.

İclasın yekununda təltiflərin təqdimatı olmuşdur. Dövlət qulluqçularının peşə bayramı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 22 iyun 2016-cı il tarixdə imzalanmış Sərəncama əsasən rayon icra hakimiyyəti başçısı aparatının memarlıq və tikinti şöbəsinin müdiri Təbriz Abdulxalıqov uzunmüddətli səmərəli fəaliyyətinə görə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı, bir qrup şəxs isə rayon icra hakimiyyətinin fəxri fərmanları ilə təltif edilmişdir.

***«Qəbələ».***

**İ. Vəlizadə.**

## Ukrayna Respublikası Rovno Vilayət Dövlət Administrasiyasının rəhbəri Qəbələ rayonunda səfərdə olmuşdur

Bu günlərdə Ukrayna Respublikası Rovno Vilayət Dövlət Administrasiyasının (VDA) rəhbəri Aleksey Mulyarenko Qəbələdə səfərdə olmuşdur. Qonağı Qəbələ Rayon İcra Hakimiyyətinin inzibati binasında RİH-nin başçısı cənab Səbuhi Abdullayev qarşılamışdır. Əvvəlcə Aleksey Mulyarenko ümummilli liderin siyasi fəaliyyətini əks etdirən guşə və icra hakimiyyətində tətbiq olunan elmi texniki tərəqqinin son nailiyyətləri ilə tanış olmuşdur.



Rayon icra hakimiyyətinin konfrans zalında keçirilən ikitərəfli görüş zamanı cənab Səbuhi Abdullayev ukraynalı qonağa Qəbələnin çox böyük strateji əhəmiyyətə malik tarixi keçmişi haqqında məlumat verərək, onun 900 il Qafqaz Albaniyasının paytaxtı olduğunu və Azərbaycanın dövlətçilik tarixində ən parlaq səhifəni təşkil etdiyini diqqətə çatırmışdır. Məhz Qafqaz Albaniyası dövründən tolerantlıq ənənələrinin qorunub saxlanıldığı, müxtəlif xalqların və dinlərin nümayəndələrinin əsrlər boyu sülh içində yaşadığı, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafına daim öz töhfəsini verən Qəbələnin son illər beynəlxalq musiqi və kino festivallarının, konfrans və rəsm sərgilərinin, müxtəlif ölkələrin dövlət başçılarının görüşlərinin, idman yarışlarının keçirildiyi məkan kimi tanınmaqda olduğunu, belə tədbirlərin onun dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrilməsinə stimul verdiyini vurğulamışdır. Beynəlxalq mədəni əlaqələrin genişləndirilməsi, zəngin maddi və mənəvi mədəniyyətimizin dünya ictimaiyyətinə çatdırılması, xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmləndirilməsi işinə xidmət edən bu tədbirlərin artıq gözəl bir ənənəyə çevrildiyini söyləyən cənab Səbuhi Abdullayev rayonda bu gün sosial-iqtisadi sahədə həyata keçirilən müxtəlif layihələr və bütün istiqamətlərdə əldə olunun uğurlar haqqında da geniş məlumat vermişdir. O, qeyd etmişdir ki, regionun turizm və kənd təsərrüfatı potensialı, son illər həyata keçirilən infrastruktur layihələri turistlərin artım dinamikasına təkan vermişdir. Eləcə də Qəbələdə istehsal olunan sənaye və qida məhsullarının dünyanın bir çox ölkələrinə ixrac edildiyinə diqqət çəkən icra başçısı bu gün rayon iqtisadiyyatının sürətlə inkişaf etdiyini və xüsusilə kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində böyük urğurların əldə olunduğunu söyləmişdir.

Rayon icra hakimiyyətinin başçısı Rovno Vilayət Dövlət Administrasiyasının rəhbərini Qəbələdə görməkdən məmnunluq hissi keçirdiyini bildirərək, onu bir daha rayonumuza təşrif buyurması üçün dəvət etmişdir.

Görüşdə Aleksey Mulyarenko ona göstərilən isti münasibətə və qonaqpərvərliyə görə cənab Səbuhi Abdullayevə minnətdarlığını bildirmişdir. VDA-nın rəhbəri oktyabrın 4-də Bakıda keçirilmiş Ukraynanın Müstəqilliyinin 25-ci ilinə həsr olunmuş tədbirdə Azərbaycan hökuməti üzvlərinin, nazirlik, diplomatik korpus, idarə və təşkilatların nümayəndələrinin, eləcə də Qəbələ Rayon İcra Hakimiyyəti başçısının iştirakından şərəf duyduğunu demişdir. Qəbələyə səfəri ilə əlaqədar Aleksey Mulyarenko bildirmişdir ki, bu görüşlər regionlar arasında ikitərəfli dialoqun aktiv fazasını davam etdirmək üçün əlverişli imkan yaradır.

Görüşdən sonra Aleksey Mulyarenko rayonun sənaye obyektləri və turizm infrastrukturu ilə tanış olmuşdur.

Ukraynalı qonaq «Beltmann» piano fabriki, Qəbələ Qida Şəhərciyi, Qəbələ Mədəniyyət Mərkəzi, şəhərin Heydər Əliyev Parkı, Konqres Mərkəzi, Qəbələ Beynəlxalq Aeroportu və "ASPİ-AQRO" MMC-nin şərab zavodunda olmuşdur.

Aleksey Mulyarenko Azərbaycanda, o cümlədən Qəbələ rayonunda gedən dinamik sosial-iqtisadi inkişafı təqdir etmişdir.

***"Qəbələ".***

**İ. Vəlizadə.**

## Beynəlxalq Müəllimlər Günü qeyd olundu

Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin akt zalında tədbir keçirilmişdir.

Bayram tədbirini giriş sözü ilə məktəbin təşkilatı işlər üzrə direktor müavini Mətanət Abdullayeva açmış, Benyəlxalq Müəllimlər Günü ilə əlaqədar məruzə etmişdir.

Qəbələ Rayon Təhsil Şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova çıxış edərək rayonda təhsil sahəsində əldə edilən uğurlardan, qarşıda duran vəzifələrdən danışdı. Rayon təhsil şöbəsinin rəhbərliyi adından bütün müəllimləri Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik etdi.

Qəbələ Rayon İcra Hakimiyyətinin məsul işçisi Azər Şirinov, Tüntül kənd tam orta məktəbinin direktoru Telman Abduxalıqov, Tikanlı kənd ümumi orta məktəbinin biologiya müəllimi Nərmin Ağazadə, Qəbələ şəhər 4 nömrəli tam orta məktəbinin müəllimi Səmayə Hacıyeva və başqaları müəllimləri bayram münasibətilə təbrik etdilər.

Məktəblilərin təhsili və tərbiyəsi sahəsində fərqlənən müəllimlərin bir qrupuna rayon təhsil şöbəsinin Fəxri Fərmanları təqdim olundu.

Tədbirin sonunda məktəblilər öz sevimli müəllimlərini rəngarəng musiqi çələngi və şeirlərlə təbrik etdilər.

***«Qəbələ».***